# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin 01 oktyabr 2014-cü il tarixli 1045 nömrəli əmri ilə təsdiq edilmişdir**

## Orta İxtisas Təhsilinin Dövlət Standartı

## Subbakalavr hazırlığı üzrə

# T Ə H S İ L   P R O Q R A M I

## İxtisasın (proqramın) şifri və adı: 040401 – Mühasibat uçotu

**BAKI – 2014**

## 1. Ümumi müddəalar

1.1. Subbakalavriat səviyyəsinin 040401 «Mühasibat uçotu» ixtisası Azərbaycan Respublikasının «Təhsil haqqında» Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş «Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı», «Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı»na və «Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları»na uyğun hazırlanmışdır.

1.2. Orta ixtisas təhsili proqramları (kurikulumlar) təlim nəticələri və məzmun standartlarını, tədris fənlərini, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi sistemini özündə əks etdirən dövlət sənədidir.

1.3 İxtisas üzrə Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə subbakalavr hazırlığını həyata keçirən bütün orta ixtisas təhsili müəssisələri üçün məcburidir.

1.4 Strukturda istifadə olunan işarələr:
**İTP –** ixtisas üzrə Təhsil Proqramı
**ÜK –** ümummədəni kompetensiyalar
**PK –** peşə kompetensiyaları

1.5 040401 Mühasibat uçotu ixtisası üzrə təhsil proqramlarının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ixtisas dərəcəsi:

| İxtisasın şifri və adı | İxtisas dərəcəsi | Əyani forma üzrə normativ təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| 040401 Mühasibat uçotu | 040401 «Mühasibat uçotu» ixtisası üzrə subbakalavr | Tam orta təhsil bazasından 2 il | 120 |

Ümumi orta təhsil bazasından və qiyabi forma üzrə təhsil müddəti 1 il artıqdır.

## 2. 040401 "Mühasibat uçotu" ixtisası üzrə məzunların ixtisas xarakteristikası və kompetensiyası

2.1 **Subbakalavrın ixtisas xarakteristikası.**

Subbakalavr:

- subbakalavrın peşə hazırlığına uyğun olaraq ixtisası üzrə iş sahələrində peşə fəaliyyətinə, eləcə də ixtisas üzrə təhsilini subbakalavr pilləsində davam etdirməyə hazır olmalıdır;
- mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən istehsal sahələri, təşkilatlar, idarələr, müəssisələr, birliklər və s. işləyə bilməlidir;
- mövcud qaydalara riayət olunmaqla müxtəlif təhsil müəssisələrində (ali məktəbdə elmi, elmi-pedaqoji fəaliyyət sahələri istisna olmaqla) çalışa bilməlidir.

2.2. **Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**

2.2.1 Məzun aşağıdakı ümummədəni kompetensiyalara (**ÜK**) yiyələnməlidir:

- kollektivdə işləmək **(ÜK-1);**
- digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq **(ÜK-2);**
- hüquqi biliklərə və etik normalara malik olmaq **(ÜK-3);**
- sağlam həyat tərzini gözləmək **(ÜK-4);**
- tənqid və özünətənqidə dözümlülük göstərmək **(ÜK-5);**
- problemli şəraitlərdə təşəbbüskarlıq göstərmək və məsuliyyəti öz üzərinə götürmək **(ÜK-6);**
- dövlət dilində sərbəst danışmaq və yazı vərdişlərinə malik olmaq **(ÜK-7);**
- xarici dildə ünsiyyətdə olmağı və fikrini ifadə etməyi bacarmaq **(ÜK-8);**
- İKT-dən istifadə etməyi bacarmaq **(ÜK-9);**
- öz inkişafına, peşəkarlığının artırılmasına çalışmaq **(ÜK-10);**
- fikrini düzgün və yığcam ifadə etmək **(ÜK-11).**

2.2.2 Məzun aşağıdakı peşə kompetensiyalarına (**PK**) yiyələnməlidir:

- fəaliyyət sahəsinə aid olan, peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən istehsal sahələrinin, təşkilatların, idarələrin, müəssisələrin, şirkətlərin və s. əsas problemlərini sistemləşdirməyi bacarmaq, onların kompleks təhlilini aparmaq və idarəetmə məqsədləri üçün konkret nəticə çıxarmaq **(PK-1);**
- peşə fəaliyyətində İKT-dən istifadə etmək **(PK-2);**
- ixtisasla bağlı əsas anlayış və terminlərin mənasını bilmək və praktikada tətbiq etmək **(PK-3);**
- qarşıya müəyyən vəzifələr qoymağı, onları həll etməkdə müvafiq metodları seçməyi və tətbiq etməyi bacarmaq **(PK-4).**

## 3. 040401 "Mühasibat uçotu" ixtisası üzrə təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər

3.1 **Məzunun təhsil səviyyəsinə qoyulan tələblər:**

- humanitar sahədə: Azərbaycan dilini, Azərbaycan tarixini, xarici dillərdən birini bilməli;
- ümumtəhsil fənləri bölümünə daxil olan fənlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30.10.2006-cı il tarixli, 233 №-li qərarı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında ümumtəhsilin konsepsiyası (Milli Kurikulumu)»na uyğun müəyyənləşdirilir və məzun bu konsepsiyaya uyğun olan biliklərə nail olmalı;
- ixtisas üzrə peşə fəaliyyətini təmin edən nəzəri və təcrübi biliklərə malik olmalı;
- ixtisas üzrə qazanılmış biliklərdən istifadə etməli;
- informasiyanın toplanması və emalında müasir üsullardan istifadə etməli;
- ixtisas sahəsinin əsas problemlərini dərk etmək, onların konkret tətbiq sahələrini bilməli;

- peşə fəaliyyəti dairəsinə aid olan məlumatların işlənilməsində və saxlanılmasında kompyuter texnologiyasından istifadə etməlidir.

3.2.1 Ümumtəhsil fənlər bölümü

| | | | | | |
|---|---|---|---|---|---|
| **ÜF-B00** | **Ümumtəhsil fənlər bölümü** | | | **900** | |
| ÜF-B01 | Azərbaycan dili (xarici dildə təhsil alanlar üçün)** | | | 60 | 1, 2 |
| ÜF- B02 | Azərbaycan (rus) dili | | | 60 | 1, 2 |
| ÜF-B03 | Ədəbiyyat | | | 60 | 1, 2 |
| ÜF-B04 | Xarici dil | | | 60 | 1, 2 |
| ÜF-B05 | Azərbaycan tarixi | | | 30 | 2 |
| ÜF-B06 | Tarix | | | 30 | 1 |
| ÜF-B07 | İnsan və cəmiyyət | | | 30 | 1 |
| ÜF-B08 | İqtisadiyyatın əsasları | | | 30 | 2 |
| ÜF-B09 | Cəbr və analizin başlanğıcı | | | 90 | 1, 2 |
| ÜF-B10 | Həndəsə | | | 45 | 2 |
| ÜF-B11 | İnformatika | | | 45 | 1 |
| ÜF-B12 | Fizika | | | 60 | 1 |
| ÜF-B13 | Astronomiya | | | 30 | 2 |
| ÜF-B14 | Kimya | | | 60 | 1 |
| ÜF-B15 | Biologiya | | | 45 | 2 |
| ÜF-B16 | Fiziki coğrafiya | | | 45 | 1 |
| ÜF-B17 | Fiziki tərbiyə | | | 60 | 1, 2 |
| ÜF-B18 | Gənclərin çağırışaqədərki hazırlığı | | | 60 | 1, 2 |

- Ümumtəhsil fənlər bölümü yalnız ümumi orta təhsil bazasından qəbul olunanlara aiddir.
- Ümumtəhsil fənləri bölümünə daxil olan fənlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30.10.2006-cı il tarixli, 233 №-li qərarı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında ümumtəhsilin konsepsiyası (Milli Kurikulumu)»na uyğun müəyyənləşdirilir və məzun bu konsepsiyaya uyğun olan biliklərə nail olmalıdır. Birinci kurslarda ümumtəhsil fənləri tədris olunduğu üçün kredit sisteminə daxil edilmir.

**Azərbaycan bölməsində təhsil müəssisəsinin bu saat hesabına ixtisasın profilinə uyğun müəyyənləşdirdiyi fənnlər tədris oluna bilər.

3.2.2. İxtisas üzrə fənn bölümləri, fənlərin kreditlər, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları.

| Fənn bölümünün kodu | Fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) | Fənn bölmələri üzrə kreditlərin sayı | Fənlər | Fənlər üzrə kreditlərin sayı | Qazanılması nəzərdə tutulan kompetensiyaların kodları |
|---|---|---|---|---|---|
| **Təhsil hissəsi** | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **HF – B00** | **Humanitar fənlər bölümü**<br><br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində subbakalavr:<br>**Bilməlidir:**<br>- Azərbaycan xalqının və dövlətinin tarixini, azadlıq demokratiya və müstəqillik yolunda qazandığı nailiyyətləri;<br>**Bacarmalıdır:**<br>- Tarixi inkişaf mərhələlərini müqayisə və təhlil etməyi, vətənpərvərlik tərbiyəsində Azərbaycanın tarixi faktlarından istifadə etməyi. | **20** | **HF–B01**<br>Azərbaycan tarixi | 6 | **ÜK-3**<br>**ÜK-4**<br>**ÜK-7**<br>**ÜK-8** |
| | **Bilməlidir:**<br>- Xarici dildə olan ixtisasa aid ədəbiyyatı oxuyub başa düşməyi;<br>**Bacarmalıdır:**<br>- Xarici dildə olan ixtisasa aid ədəbiyyatı lüğətlə tərcümə etməyi, tərcümeyi-hal və digər rəsmi sənədləri xarici dildə tərtib etməyi;<br>**Yiyələnməlidir:**<br>- Xarici dildə olan materiallardan peşə fəaliyyətində istifadə etmək vərdişlərinə. | | **HF–B02**<br>Xarici dil | 6 | |
| | **Bilməlidir:**<br>- Azərbaycan Respublikasının dövlət dilini sərbəst;<br>**Bacarmalıdır;**<br>- Leksikonundan peşə fəaliyyətində istifadə etməyi, rəsmi və işgüzar üslubda yazmağı və danışmağı;<br>**Yiyələnməlidir:**<br>- Savadlı danışıq vərdişlərinə. | | **HF–B03**<br>Azərbaycan dili *(təlimi rus dilində olanlar üçün)* | 4 | |
| | **Bilməlidir:**<br>- Cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarını, demokratiyanın əsas prinsiplərini, beynəlxalq prosesləri;<br>**Bacarmalıdır:**<br>- Cəmiyyətdə baş verən prosesləri təhlil etməyi. | | **HF–B04**<br>Seçmə fənlər* | 4 | |
| **İF – B00** | **İxtisas peşə hazırlığı fənləri** | **70** | | | **ÜK-1** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **bölümü**<br><br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində subbakalavr: | | | | **ÜK-2**<br>**ÜK-5**<br>**ÜK-6**<br>**ÜK-9**<br>**ÜK-10**<br>**ÜK-11**<br>**PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4** |
| | **Bilməlidir:**<br>- Fəaliyyət növü və idarəetmə sistemi kimi menecmentin əsaslarını;<br>**Bacarmalıdır:**<br>- Müxtəlif üsullardan istifadə etməklə idarəedici fəaliyyəti yaratmağı;<br>**Yiyələnməlidir:**<br>- İnsanın, qrupun və iqtisadiyyatın idarəedilməsi, rəhbərlik vərdişlərinə. | | **İF-B01**<br>Menecmentin əsasları | 4 | |
| | **Bilməlidir:**<br>- Mikroiqtisadiyyatın nəzəri problemlərini, bazar iqtisadiyyatı və bazar mexanizmini, rəqabət, bazar hökmranlığı, antiinhisar tənzimlənməsi və risklər nəzəriyyəsini;<br>**Bacarmalıdır:**<br>- Təkmil və qeyri-təkmil rəqabət, həmçinin inhisar şəraitində firmaların davranması üçün təkliflər hazırlamağı | | **İF-B02**<br>Mikroiqti-sadiyyat | 5 | |
| | **Bilməlidir:**<br>- İqtisadiyyatın və onun müxtəlif sahələrinin quruluşu-nun, əmək və material ehtiyatlarından səmərəli istifadə edilməsi üsullarını;<br>**Bacarmalıdır:**<br>- Elmi-texniki tərəqqi, əmək məhsuldarlığının və keyfiyyətin yüksəldilməsi üçün təkliflər hazırlanmaq və onların icrasını həyata keçirməyi;<br>**Yiyələnməlidir:**<br>- İnkişafın (tənəzzülün) dinamikasını təhlil etmək vərdişlərinə. | | **İF-B03**<br>Firmanın (müəssisənin) iqtisadiyyatı | 4 | |
| | **Bilməlidir:**<br>- Azərbaycan Respublikası hüquqi sisteminin və qanunveri- | | **İF-B04**<br>Mülki və əmək hüququ | 4 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | ciliyinin əsaslarını, mülki hüquq münasibətlərini, əmək hüququnun əsas müdəalarını mülki və əmək məcəllələrini;<br>**Bacarmalıdır:**<br>- Peşə fəaliyyətinə dair normativ və hüququ sənədlərin tərtibi və ondan istifadə etməyi, pozulmuş mülki hüquq, mülkiyyət hüququ, əmək hüququnun bərpasını həyata keçirməyi. | | | | |
| | **Bilməlidir:**<br>- Kompleks ədədlər, matrislər və determinantlar, xətti, kanonik, diferensial tənliklər sistemi və onların həlli üsulları, müəyyən və qeyri-müəyyən inteqralları;<br>**Bacarmalıdır:**<br>- Peşə fəaliyyətində riyazi hesablamalardan istifadə etməyi. | | **İF-B05**<br>Riyaziyyat | 4 | |
| | **Bilməlidir:**<br>- İnformasiya və kompüter texnologiyalarını, Windows əməliyyat sistemini, Microsoft Excelldə cədvəllərin qurulmasını;<br>**Bacarmalıdır:**<br>- Avtomatlaşdırılmış idarəetmə sistemləri yaratmağı, ixtisasına uyğun informasiya və intelektual sistemləri yaratmağı. | | **İF-B06**<br>İqtisadi informasiyanın kompetrlə işlənməsi | 4 | |
| | **Bilməlidir:**<br>- Maliyyə və kredit sistemini, iqtisadiyyata maliyyə nəzarətini, maliyyə-kredit islahatlarını, valyuta kredit və maliyyə təşkilatlarından səmərəli istifadə üsullarını;<br>**Bacarmalıdır:**<br>- Təsərrüfat subyektlərinin maliyyə sabitliyi, ödəmə qabiliyyətliyini araşdırmaq nəticəsində konkret tövsiyyələr işləyib hazırlamağı. | | **İF-B07**<br>Maliyyə və kredit | 4 | |
| | **Bilməlidir:**<br>- Statistik materialların qruplaşdırılması və yekunlaşdırıl- | | **İF-B08**<br>Statitika | 4 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | ması, sosial iqtisadiyyatın bütün sahələrinin statistikasının fərləndirici xüsusiyyətlərini;<br>**Bacarmalıdır:**<br>- Statistik məlumat, statistik hesabat hazırlamağı, onları təhlil etməyi. | | | | |
| | **Bilməlidir:**<br>- Mühasibat uçotunun vəzifələri və mahiyyətini, mühasibat balansı, onun quruluşu və bölmələrini, mühasibat uçotu hesabları, aktiv və passiv, sintetik və analitik hesabları ayırmağı;<br>**Bacarmalıdır:**<br>- Hesabların dövriyyə və son qalığının hesablanmasını, dövriyyə cədvəllərinin hazırlamağı, inventarlaşma, onun aparma qaydalarını və nəticələri balansda əks etdirməyi. | | **İF-B09**<br>Mühasibat uçotu nəzəriyyəsi | 4 | |
| | **Bilməlidir:**<br>- Əsas vəsaitlərin qiymətləndirilməsi və uçotunu, onların köhnəlməsi, təmiri, icarəsi və ləğv olunmasının uçotunu, qeyri-maddi aktivlərin, maliyyə qoyuluşlarının istehsal, nəqliyyat, tədarük xərclərinin uçotunu, hazır məhsulun uçotunun, malsatanlarla, debitor və kreditorlarla hesablaşmaları, mənfəət və zərərin müəyyənləşdirilməsini;<br>**Bacarmalıdır:**<br>- Təsərrüfat əməliyyatlarının nəticələrinin sənədləşdirilməsini, hesabatların hazırlanması və təqdim edilməsini, ixtisasın mahiyyətini, qanunauyğunluqlarını, prinsiplərini, metodlarını, texnologiyalarını, təkili formalarını praktiki olaraq həyata keçirməyi;<br>**Yiyələnməlidir:**<br>- Mühasibat uçotunun praktikada təşkilinin forma və metodlarına uçot və hesabat informasiyalarının toplanması, işlə- | | **İF-B10**<br>Sahələr mühasibat uçotu | 8 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | nilməsi sistemləşdirilməsi vərdişlərinə, müasir proqram təminatından mühasibat uçotunun praktiki məsələlərinin həllində istifadə etmək qabiliyyətinə.<br><br>**Bilməlidir:**<br>- İqtisadi təhlilin metodlarını, müəssisənin təsərrüfat fəaliyyətinin, məhsul istehsal proqramının yerinə yetirilməsinin, texniki inkişafın, əmək resurslarından, əsas fondlardan istifadənin, mənfəət, gəlir, rentabelliyin və iqtisadi səmərəliliyin təhlilini;<br>**Bacarmalıdır:**<br>- İqtisadi təhlilini təşkilini, maliyyə təsərrüfat fəaliyyətini təhlil etməyi, qiymətləndirməyi və araşdırmalar nəticəsində tövsiyələr işləyib hazırlamağı;<br>**Yiyələnməlidir:**<br>- Müasir proqram təminatından iqtisadi təhlillə bağlı praktiki məsələlərin həllində istifadə etmək qabiliyyətinə.<br><br>**Bilməlidir:**<br>- Auditin təşkilinin ümumi qanunauyğunluqlarını, nəzəri və praktiki metodlarını, auditin təşkili sferasına aid aktual problemlərin sistemləşdirilməsi və həlli yollarını;<br>**Bacarmalıdır:**<br>- Audit yoxlamasının nəticəsinin ümumiləşdirilməyi və qiymətləndirməyi, yoxlama nəticəsi haqqında əməli təkliflər işləyib hazırlamağı;<br>**Yiyələnməlidir:**<br>- Audit xidməti göstərmək və onu təşkil etmək, praktiki məsələlərin həllində auditin imkanlarından istifadə etmək qabiliyyətinə. | | **İF-B11**<br>İqtisadi təhlil<br><br>**İF-B12**<br>Audit xidməti və onun təşkili<br><br>**İF-B13**<br>Seçmə fənlər | 6<br><br>7<br><br>12 | |
| **TE-B00** | **Təcrübələr və yekun** | 30 | **TE-B01** | 24 | **ÜK-1** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **attestasiya**<br>Bu bölümə aid olanların öyrənilməsi nəticəsində təhsil alan subbakalavr:<br>- qazanılmış nəzəri biliklərin təcrübələr keçirilən müəssisələrdə tətbiqinin mütərəqqi üsul və metodlarını **bilməlidir;**<br>- konkret ixtisas sahəsinin təşkili və idarə olunması metodlarını, qaydalarını, prinsiplərini və onların praktiki aprobasiyasını **bacarmalıdır;**<br>- nəzəri sahədə əldə etdikləri bilikləri praktikaya tətbiq etməyi, onların nəticələrini ümumiləşdirməyi və sistemləş-dirmək vərdişlərinə **yiyələnməlidir.** | | Təcrübələr<br><br>**TE-B02**<br>Yekun dövlət attestasiyası | 6 | **ÜK-2**<br>**ÜK-9**<br>**PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4** |
| **Kreditlərin ümumi cəmi:** | | **120** | | | |

3.3. 040401 «Mühasibat uçotu» subbakalavr təhsil proqramını mənimsəmək üçün ayrılan ümumi həftələr -146-dır,

*o cümlədən:*

- nəzəri təlim üçün 75;
- imtahan sessiyaları üçün 25;
- təcrübələr üçün 16;
- tətillər üçün 26 (qış dövründə tətil müddəti 2 həftədən az olmamalıdır);
- yekun dövlət attestasiyası üçün 4;

3.4. 040401 «Mühasibat uçotu» ixtisası üzrə təhsil proqramı aşağıdakı tədris-metodiki sənədlər əsasında həyata keçirilməlidir:

- nümunəvi tədris planı;
- işçi tədris planı;
- istehsalat təcrübələrinin keçirilməsinə, buraxılış işlərinin yerinə yetirilməsinə, tələbələrin yekun dövlət attestasiyasına dair metodik göstərişlər;
- fənn proqramları;
- fənlər üzrə işçi-tədris proqramları (sillabus);
- fənlər üzrə tapşırıqların yerinə yetirilməsinin cədvəli;
- dərsliklər, əyani vasitələr, təklif olunan ədəbiyyatın siyahısı;
- nəzəri və praktiki məşğələlərin planı;
- fənnin öyrənilməsi ilə bağlı tövsiyələr;
- kurs işlərinin (layihələrinin), laborator və qrafik işlərin yerinə yetirilməsinə, istehsalat təcrübələrinin yekunları barədə hesabatların hazırlanmasına dair metodiki tövsiyələr.

3.5. Subbakalavr təhsil proqramını həyata keçirən orta ixtisas məktəbləri aşağıdakı hüquqlara malikdirlər:

- tələbə üçün proqramda nəzərdə tutulmuş illik orta dərs yükü həddini və təlimin, minimum məzmununu saxlamaqla təhsil materialının mənimsənilməsinə ayrılmış saatların həcmini fənn bölümləri arasında 5%, fənn bölümləri daxilində isə 20%-ə qədər dəyişmək;
- seçmə fənlərin siyahısını, onların tədris ardıcıllığını, dərs növləri üzrə saatların miqdarını müəyyən etmək;
- orta ixtisas məktəbləri seçmə fənlərini müxtəlif bloklar şəklində təklif edə bilər. Bu bloklara daxil olan fənlər mümkün qədər müvafiq ixtisaslar üzrə subbakalavr proqramlarına istiqamətləndirilməlidir;
- hər semestrdə nəzəri təlim müddəti (sonuncu semestr istisna olmaqla) 15 həftədir;
- təhsil dövründə tələbənin məcburi auditoriya dərsləri bir qayda olaraq həftədə 30 saata qədər müəyyənləşdirilir.

## 4. 040401 «Mühasibat uçotu» ixtisası üzrə subbakalavr hazırlığını həyata keçirən orta ixtisas təhsili müəssisəsinin maddi-texniki bazası və kadr potensialı

4.1. Maddi-texniki baza:

- təhsil proqramını həyata keçirən orta ixtisas təhsili müəssisəsi subbakalavr hazırlığını təmin edən maddi-texniki bazaya (kabinetlər, laboratoriyalar, poliqonlar, idman zalları, kitabxana və oxu zalları və s.) malik olmalıdır. Maddi-texniki baza qüvvədə olan inşaat normalarına, sanitar və gigiyenik qaydalarına uyğun olmalıdır.

Kabinetlər:

- Dillər və ədəbiyyat
- Sosial-iqtisadi fənlər
- Riyaziyyat
- Kompüter kabineti
- Gənclərin çağırışa qədərki hazırlığı
- Hümanitar fənlər
- İqtisadiyyat
- Maliyyə və kredit
- Mühasibat uçotu
- İqtisadi təhlil
- Metodiki kabinet

Laboratoriyalar:

- Fizika
- Kimya və biologiya

Kitabxana, internet şəbəkəsinə çıxışı olan oxucu zalı

İdman kompleksi

Akt zalı

4.2. Kadr potensialı:

orta ixtisas təhsili müəssisəsi müvafiq ixtisas üzrə ali təhsili olan pedaqoji kadrlarla təmin olunmalıdır.

Orta ixtisas təhsili müəssisələrində təhsilverənlərin keyfiyyət göstəricilərinə aşağıdakılar daxildir:

- öz fəaliyyətlərində innovativ təlim, informasiya-kommunikasiya, müasir texnika, yeni istehsal və pedaqoji texnologiyalardan istifadə etməli;
- təhsilverənlər ali təhsilli olmaqla yanaşı müəyyən istehsalat və pedaqoji təcrübəyə malik olmalı;
- mütəmadi olaraq öz bilik və bacarıqlarını artırmaq üçün müəyyən olunmuş müddətdə və qaydada ixtisasartırmadan keçməlidirlər.

## 5. Tədris prosesinin forma və metodları

5.1 Tədris formal təhsil formasında həyata keçirilir. Təhsilalma formaları əyani və qiyabidir.

040401 «Mühasibat uçotu» ixtisas üzrə tələbələrin təhsili kredit sisteminə uyğunlaşdırılmış tədris plan və proqramları əsasında həyata keçirilir.

5.2. Tədris prosesində müxtəlif dərs növlərindən istifadə olunur (nəzəri, praktiki, laborator məşğələləri, yoxlama işləri, kurs işi (layihəsi) və s.). Bununla yanaşı təhsil alanların yaradıcı fəaliyyətinə imkan verən, tədqiqatçılıq bacarıqlarını stimullaşdıran dərslərə geniş yer ayrılmalıdır. Yeni pedaqoji texnologiyaları və müasir interaktiv təlim metodlarını əks etdirən dərs-ekskursiya, dərs-yarış, dərs-müzakirə, dərs-disput kimi qeyri-standart dərslərdən istifadəyə üstünlük verilməli, təlim prosesinin çevikliyini təmin edən müxtəlif iş formalarından (kollektiv iş, qruplarla iş, cütlərlə iş, fərdi iş) istifadə olunmalıdır. Təlim prosesində dialoqa, məntiqi və tənqidi təfəkkürü inkişaf etdirən, yaradıcı fəaliyyətə əsaslanan fəal və interaktiv metodlardan istifadə edilməlidir.

## 6. Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə

6.1. Subbakalavriat səviyyəsində ixtisaslar üzrə təhsil proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır.

6.2. Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalarda) müvafəqqiyyətlə keçmiş tələbələr yekun attestasiyaya buraxılırlar.

6.3. Yekun attestasiya bütün təhsilalanlar üçün məcburidir, onun hazırlanmasına və təşkilinə ayrılan müddət 4 həftədir

6.4. Yekun attestasiya ixtisas üzrə buraxılış yekun dövlət imtahanı (fənlərarası) və ya buraxılış işinin medafiəsindən ibarətdir.

6.5. Subbakalavriat səviyyəsində tələbələrin topladığı kreditlərin sayı 120 olmalıdır. İxtisaslar üzrə təhsil proqramlarında nəzərdə tutulmuş kreditləri toplayan tələbə həmin proqramı mənimsəmiş hesab edilir. Orta ixtisas təhsili müəssisələrində subbakalavriat səviyyəsinin təhsil proqramı üzrə tədris planını tam yerinə yetirmiş şəxslərə yekun Dövlət Attestasiya Komissiyasının qərarı əsasında "subbakalavr" peşə-ixtisas dərəcəsi verilir.

6.6. Yekun attestasiyanın təşkili və keçirilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilir.

**Razılaşdırılmışdır:**

**Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun direktoru**

**____________ Q.Novruzov**

**«____» _____________2014-cü il**

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin Orta ixtisas təhsili sektorunun müdiri**

**_____________ K.Mikayılov**

**«_____» _____________ 2014-cü il**

**İqtisadiyyat və idarəetmə ixtisasları üzrə Dövlət Təhsil Standartlarını hazırlayan işçi qrupunun sədri**

**_________________ F.Əsədov**

**«____» _____________2014-cü il**

**Təhsil Nazirliyin Elmi-Metodik Şurasının İqtisadiyyat bölməsinin sədri**

**____________**

**«____» _____________2014-cü il**